Tam yeni Kia Seltos



Movement that inspires

Tam yeni Kia Seltos

Artıq heç bir kompromisə ehtiyac yoxdur. İfadəli dizaynın, müasir texnologiyaların, gücün və komfortun vəhdəti. Diqqətçəkən görünüş, düşünülmüş interyer və qabaqcıl həllər avtomobildən istədiyiniz hər şeyi hər gün və həyatın ən müxtəlif anlarında əldə etməyə imkan verir.

Hər baxış bucağından cəlbedici

Tam yeni Seltos daha cəsarətli və inamlı görünüş qazanıb.
Geniş radiator barmaqlığı və “Ulduz xəritəsi” üslubunda incə LED işıq elementləri dərhal diqqəti cəlb edən müasir obraz yaradır. Kuzovun ifadəli xətləri, arxa hissənin yeni dizaynı və cəlbedici təkər diskləri dinamik xarakteri vurğulayır.



Yeni işıq qrafikası

“Ulduz xəritəsi” üslubunda şaquli gündüz işıqlarının xarakterik dizaynı və güclü proyeksiyalı faralar yeni Seltos-un tanınan görünüşünü formalaşdırır.



Arxa hissənin yeni dizaynı

Üfüqi və şaquli işıq qrafikasına malik arxa LED fənərlər avtomobilin möhtəşəm görünüşünü vurğulayır və arxa hissəyə daha əzmli görkəm bəxş edir.



17 düymlük təkər diskləri

Disklərin yeni dizaynı SUV modelinin dinamik və müasir görünüşünü tamamlayır.



Gizli qapı tutacaqları

Yuvasından avtomatik çıxan tutacaqlar qapılar açılarkən rəvan şəkildə irəli çıxır, digər vaxtlarda isə kuzovun içərisində tam gizlənərək bütöv və futuristik üslub yaradır.

Müasir görünüşlü məkan

Yeni Seltos-un interyeri sürücü və sərnişinlərin komfortu nəzərə alınaraq hazırlanıb. Ön panelin üfüqi quruluşu salonu vizual olaraq genişləndirir, böyük panoramik displey isə avtomobilin əsas funksiyalarını vahid rəqəmsal mühitdə birləşdirir. Yüksək keyfiyyətli örtük materialları, dekorativ işıqlandırması və geniş salon siniflər arasındakı sərhədləri aradan qaldıran müstəsna komfort yaradır.



Salonun dekorativ işıqlandırması
LED işıqlandırma salonun arxitekturasını zərif şəkildə vurğulayır və interyeri qövsvari əhatə edərək müasir həyatın ritminə uyğun rahatladıcı atmosfer yaradır.

Daha yüksək səviyyəli komfortu təmin edən texnologiyalar

Yeni Seltos-un salonu sürücü ətrafında qurulmuş rəqəmsal məkandır. Diaqonalı 27 düym olan nəhəng panoramik displey əsas idarəetmə və multimedia funksiyalarını birləşdirir. Vacib məlumatları yoldan yayınmadan bir baxışda görməyə və vəziyyəti nəzarətdə saxlamağa imkan verir.



10 düymlük rəqəmsal cihazlar paneli

Yeni 10 düymlük displey sadə və intuitiv interfeys vasitəsilə idarəetmə üçün zəruri məlumatları əks etdirir.



Sükan sütununda elektron selektor

Sükan sütununda yerləşən elektron selektor intuitiv idarəetməni təmin edir və mərkəzi konsolda əlavə yer yaradır.



12 düymlük proyeksiya displeyi

Yol şəraiti haqqında məlumatı birbaşa ön şüşədə göstərir. Aydın qrafika gözlərin yorulmasını azaldır, idarəetməni daha təhlükəsiz və rahat edir.



Mərkəzi konsol

Geniş saxlama bölməsi, simsiz enerji doldurma və fırlanan stəkanaltılar — yolda lazım olan hər şey bir yerdə.



Simsiz enerji doldurma və USB portları

Smartfonu xüsusi səthə qoymaqla simsiz doldurmaq mümkündür. Digər cihazlar üçün salonda üç USB portu nəzərdə tutulub.



Bose premium audiosistemi


8 dinamikli premium audiosistem təmiz, dolğun və həcmli səs təmin edir.





İkinci sıra oturacaqlarının tənzimlənməsi

Arxalıqların maillik bucağının tənzimlənməsi arxa sərnişinlərə əlavə rahatlıq yaradır.



İkinci sıra üçün Type-C portları

İki sürətli Type-C portu sərnişinlərin smartfon və planşetlərini yolda rahat doldurmasına imkan verir.

Məkan və komfort

Geniş salon müasir ikirəngli oturacaqları və qabaqcıl funksiyaları birləşdirir. İnteryerin hər bir detalı maksimum rahatlıq üçün düşünülüb. Yeni Kia Seltos həyat tərzinizə uyğunlaşaraq hər səfərdə yeni komfort imkanları açır.



İkinci sıranın mərkəzi dirsəkaltı

Erqonomik stəkanaltılı mərkəzi dirsəkaltı ikinci sıra sərnişinlərin səfər zamanı komfortunu daha da artırır.



İkinci sıra üçün artırılmış komfort

Mərkəzi konsoldakı əlavə hava çıxışı arxa sərnişinlər üçün hava dövranını yaxşılaşdırır.



"After-blow" sistemi

Kondisioner işlədikdən sonra qalan nəmi aradan qaldırır, bakteriyaların yaranmasının və xoşagəlməz qoxunun qarşısını almağa kömək edir.



Sürücü oturacağının 6 istiqamətdə elektrik tənzimlənməsi

Hər səfərdə fərdi rahatlığı və düzgün oturuş mövqeyini təmin etmək üçün oturacağı özünüzə ən uyğun vəziyyətə tənzimləyin.

X-Line

İri ön bamper və diqqətçəkən radiator barmaqlığı ilk baxışdan istənilən çətinliyin öhdəsindən gəlməyə hazır olduğunu nümayiş etdirərək avtomobilin idman üslubunu və güzəştsiz xarakterini vurğulayır.



Sükan çarxı

Üst və alt hissələri yastılaşdırılmış üçqollu sükan çarxının idman üslublu dizaynı X-Line versiyasının dinamik xarakterini vurğulayır. Bu dəbli həll sükanın rahat tutulmasını və idarəetmədə yüksək dəqiqliyi təmin edir.



İnteryer dizaynı

Oturacaqların eksklüziv naxışları, torlu başaltılar və tavanın qara örtüyü ilə birlikdə salonda xüsusi ab-hava yaradaraq bu versiyanın özünəməxsus üslubunu və cəsarətli xarakterini vurğulayır.



18 düymlük xəlitə disklər

Qara rəngli 18 düymlük xəlitə disklər yalnız X-Line versiyası üçün nəzərdə tutulub.



Eksteryerin qara elementləri

Eksklüziv radiator barmaqlığı və qara emblemlər X-Line-ın özünəməxsus görünüşünü yaradır.

İstənilən yolda güc və nəzarət

Yeni Seltos təkcə şəhər üçün yaradılmayıb. Güclü mühərrik, tamötürücülü transmissiya və şassinin inamlı sazlanması şəhərdə, magistralda və şəhərdən kənarda daha çox sərbəstlik təmin edir.

200 a.g.

Hər sürətlənməyə daha çox inam və sürüş həzzi qatan güc.

Tamötürücülü

Yol şəraiti çətinləşdikdə belə inamlı idarəetməni qorumağa kömək edir.

Qabaqcıl təhlükəsizlik və sürücüyə yardım sistemləri (ADAS)

Yeni Seltos inamlı xarakteri təhlükəsizliyə ağıllı yanaşma ilə birləşdirir. Qabaqcıl ADAS sistemləri yol şəraitini davamlı izləyir, risklərin qarşısını almağa və həm hərəkət, həm də parklama zamanı rahatlığı artırmağa kömək edir.



Frontal toqquşmadan qoruma assistenti (FCA)

Frontal toqquşmadan qoruma assistenti (FCA) öndə hərəkət edən avtomobil qəfil yavaşladıqda, yaxud avtomobil, piyada və ya velosipedçi ilə toqquşma riski yarandıqda sürücünü xəbərdar edir. Zərurət olduqda tormozlamanı işə salır. Sistem yolayrıcını keçərkən və sola dönərkən də işləyir.



Zolaqla hərəkət assistenti 2 (LFA 2)

Avtomobilin seçilmiş hərəkət zolağının mərkəzində qalmasına kömək edir. Sistemin təkmilləşdirilmiş ikinci nəsli sükan idarəetməsinə təsir göstərərək daha geniş imkanlar təmin edir.



Gizli zonada toqquşmadan qoruma assistenti (BCA)

Hərəkət zolağını dəyişərkən qonşu zolaqda arxadan gələn avtomobillə toqquşma təhlükəsi barədə xəbərdarlıq edir. Paralel parklamadan çıxarkən də toqquşma riski yaranarsa avtomatik tormozlamaya kömək edir.



6 təhlükəsizlik yastığı

Sürücü və ön sərnişin üçün təkmilləşdirilmiş ön təhlükəsizlik yastıqları, ön oturacaqlar üçün yan yastıqlar və aşma zamanı işə düşən təhlükəsizlik pərdələri qəza zamanı daha etibarlı mühafizəni təmin edir.




Parklama yerindən geriyə hərəkət edərkən toqquşmadan qoruma assistenti (PCA-R)

Geriyə hərəkət zamanı avtomobil, obyekt və ya piyada ilə toqquşma təhlükəsi yaranarsa, sistem vizual və səsli xəbərdarlıq edir. Risk davam edərsə, toqquşmanın qarşısını almaq üçün təcili tormozlama tətbiq olunur.



Dairəvi görüntüləmə sistemi (SVM)

Təhlükəsiz parklama üçün müxtəlif baxış bucaqları, o cümlədən 3D görüntü təqdim edir.



Geriyə hərəkətdə çarpaz istiqamətdə yaxınlaşan nəqliyyatla toqquşmadan qoruma assistenti (RCCA)

Geriyə hərəkət zamanı soldan və ya sağdan yaxınlaşan nəqliyyat vasitələri barədə xəbərdarlıq edir. Risk artarsa, təcili tormozlamanı işə salır.



Məsafədən pultla parklama assistenti (RSPA)

İntellektual açarın düyməsi ilə avtomobildən kənarda dayanaraq onu irəli və geri hərəkət etdirməyə, məsafədən parklamağa imkan verir.

Model variantları

Tam yeni Kia Seltos ilə zövqlü seçimlər dünyasına daxil olun. Kuzov rənglərinin ifadəli palitrası ilə fərdiliyinizi vurğulayın. Texnoloji və zərif baza versiyasından macəralara hazır cəsarətli X-Line seriyasınadək hər kəs öz xarakterinə və həyat tərzinə uyğun ideal krossover tapa bilər.



Urban Gray (Matte) / X-Line (AGM)

Delightful Blue (DB2)

Urban Sage (CS5)

Təchizat



Toxunmadan açılma funksiyalı elektrik baqaj qapısı





Reflektor tipli LED faralar



Proyeksiya tipli LED faralar



Panoramik dam və lük



Birinci sıra oturacaqlarının isidilməsi və havalandırılması / ikinci sıra oturacaqlarının isidilməsi



Düz döşəmə yaradan qatlanan ikinci sıra oturacaqları



Geniş baqaj bölməsi (483 litr)



Böyük açılıb-çıxan stəkanalılar



İki zonalı iqlimə avtomatik nəzarət sistemi

İnteryerin rəng və örtük variantları

Hər seçim özünəməxsus əhval-ruhiyyə yaradır. Zövqünüzə uyğun interyer rəngini, materialları və örtüyü seçin.




Qara + açıq boz



Parça + süni dəri




Qəhvəyi + isti boz



Süni dəri



Yaşıl + nanə-boz



Süni dəri




Qara (yalnız X-Line üçün)



Süni dəri + torlu başaltı

Texniki xassələr

Ölçülər (mm)



Hündürlük göstəricisinə damdakı yük qövsləri daxil deyil. Təkər izi 18 düymlük şinlər üçündür. Ölçü vahidi: mm.

Texniki göstəricilər

Mühərrik	1.5 MPI	1.5 T-GDI	1.5 T-GDI	1.5 T-GDI
Uzunluq (mm)	4 460			
En (mm)	1 830			
Hündürlük (mm)	1 620 (yük qövsləri xaric)			
Təkərlərarası baza (mm)	2 690			
Klirens (mm)	180			
Ötürücü tipi	Ön ötürücü		Qoşulan tam ötürücü	
Коробка передач	Variator	8 pilləli avtomatik		
Maksimal güc (a.g.@dövr/dəq)	115 @ 6 300	150 @ 6 000		200 @ 6 000
Maksimal fırlanma anı (Nm@dövr/dəq)	144 @ 4 500	253 @ 2 200-3 500		
Максимальная скорость (км/ч)	178	195		210
Ускорение 0-100 км/ч (с)	12,4	9,4	9,9	8,9
Расход топлива (городской, л/100 км)	8,3	10,3	10,3	10,4
Расход топлива (загородный, л/100 км)	5,6	6,3	6,3	6,3
Расход топлива (комбинированный, л/100 км)	6,6	7,8	7,8	7,8
Ekoloji standart	Avro 6			
Baqaj bölməsinin həcmi (VDA, litr) (müvəqqəti ehtiyat təkərlə)	483-1 454			
Yanacaq çəninin həcmi (litr)	50			

※ Yanacaq sərfiyyatı standart sınaq şəraitində ölçülüb.
Faktiki sərfiyyat idarəetmə tərzi, yüklənmə və ətraf mühitin temperaturdan asılı olaraq fərqli ola bilər.

Kuzov rəngləri


Aurora Black Pearl (ABP)


Imperial Blue (MPB)


Gravity Gray (Gloss) (KDG)


Urban Sage (CS5)


Urban Gray (Matte) (AGM)


Snow White Pearl (SWP)


Pewter Olive (EWE)


Delightful Blue (DB2)


Sparkling Silver (KCS)


Flame Orange (F8Y)

Təkər diskləri


16 düymlük polad disklər dekorativ qapaqlarla


17 düymlük xəlitə disklər


18 düymlük xəlitə disklər
*yalnız X-Line üçün

Tam yeni Kia Seltos. Hər şeyi seçin.

Ətraflı məlumat üçün rəsmi sayt: www.kia.az

Bütün məlumatlar və illüstrasiyalar çap zamanı mövcud olan məlumatlara əsaslanır. Şirkət əvvəlcədən xəbərdarlıq etmədən dəyişiklik etmək hüququnu özündə saxlayır. Təchizat və qiymətlər barədə tam məlumatı Kia dilerlərindən əldə edə bilərsiniz.

5 il və ya 150 000 km zəmanət www.kia.az saytında və avtomobilin servis kitabçasında göstərilən şərtlərə uyğun qüvvədədir.

Avtomobilin xarici görünüşü, mövcud opsiyalar və eksteryer elementləri göstərilənlərdən fərqlənə bilər.

Movement that inspires

İL ZƏMANƏT

KEYFİYYƏT TƏSDİQLƏNİB